


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

9 fevral 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 6 (3620)

# PREZİDENT İLHAM ƏLİYEVİN ENERJİ DİPLOMATİYASI




Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bu gün enerji diplomatiyasında da güclü platforma yaradır. Bunu reallaşdırmaq üçün ölkəmizin həm kifayət qədər təbii resursu, həm də güclü siyasi iradəsi var. Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurasının birinci toplantısı, həmçinin toplantılarda səslənən fikirlər bunun təsdiqidir. Prezident İlham Əliyevin qlobal təşəbbüsləri əsasında reallaşan layihələr Avropanın enerji təminatına davamlı töhfələr verir, eyni zamanda ölkəmizin beynəlxalq münasibətlər sistemindəki artan rolunu bir daha ifadə edir.

Mərasimdə çıxış edən dövlətimizin başçısı "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının VIII iclasından ötən dövr ərzində Azərbaycanın bu istiqamətdə gördüyü işlərdən, imzalanan sazişlərdən bəhs edib. Bildirib ki, bu gün ölkəmizin Avropanı enerji ilə təmin etməyə yetərincə potensialı mövcuddur.

Məşvərət Şurasının səkkizinci toplantısından sonra dünyada gedən proseslərə diqqət çəkən ölkəmizin rəhbəri vurğulayıb ki, dünya sürətlə dəyişməkdədir və enerji təhlükəsizliyi məsələlərinin hər bir ölkə üçün əhəmiyyəti daha da yüksəlir.

Bu il Azərbaycanın təbii qaz ixracının 24,5 milyard kubmetrə çatdırılmasının nəzərdə tutulması Avropa Komissiyası ilə anlaşma memorandumunun uğurla icra olunduğundan xəbər verir. Ölkəmiz ixracı artırmaqla enerji təhlükəsizliyi sahəsindəki mövqeyini həm gücləndirir, həm də onun coğrafiyasını genişləndirir: "Əminəm ki, layihəyə qoşulmuş ölkələr bu gün bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin digər bağlantılar və potensial interkonnektorlar vasitəsilə biz Avropada daha çox ölkələri bu layihəyə qoşa biləcəyik. Təbii qaz resurslarına gəldikdə, mən artıq dəfələrlə bildirmişəm ki, təbii qaz ehtiyatları bizə və tərəfdaşlarımıza ən azı 100 il üçün bəs edəcək".

Müasir dünyanın üzləşdiyi çağırışlar, eləcə də qlobal enerji balansındakı dəyişikliklər dayanıqlı, xüsusən yaşıl və hidrogen enerji güclərinin artırılmasını gündəmə gətirib. Azərbaycanda "yaşıl enerji" və hidrogen üçün əlverişli münbit mənbələr var və ölkəmizdə bu istiqamətdə konkret hədəflər müəyyən edilib. Belə ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" proqramında Azərbaycanı "yaşıl artım" ölkəsinə çevrilmək sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirilib.

"Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında Prezident İlham Əliyev ölkəmizin "yaşıl enerji" potensialını diqqətə çatdırdı: "Azərbaycan, həmçinin çox böyük "yaşıl enerji" potensialına malikdir. Bu, artıq təsdiq olunmuş faktdır. Yalnız dənizdə külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır, iki ildən də artıq müddət əvvəl Vətən müharibəsi zamanı azad etdiyimiz torpaqlarda 10 qiqavata yaxındır. Biz, həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən etmişik".

"Yaşıl enerji" ixracı ilə bağlı qarşıda vəzifələr durur. Bura Azərbaycandakı quru və dəniz yataqlarında bərpaolunan enerjinin istehsalı, Gürcüstanla sərhədə qədər, həmçinin Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi, maliyyə institutları ilə əməkdaşlıq daxildir.

Enerji təhlükəsizliyinin aktuallığı yaxın gələcəkdə Azərbaycanın, Gürcüstanın, Macarıstanın və Rumıniyanın təmsil olunduğu "yaşıl enerji" komandasının sıraları daha da böyüyəcək. Çünki bunu zaman və mövcud reallıqlar tələb edir.




**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il fevral ayının 16-da Cəlilabad Rayon Polis Şöbəsinin inzibati binasında Neftçala, Biləsuvar, Cəbrayıl və Cəlilabad şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.**

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 15.02.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# QARDAŞIN HARAYINA QARDAŞ TƏLƏSDİ






Özünü hər zaman darda olanın, köməyə ehtiyac duyanın yardımına çatdıran Türkiyə bu günlərdə baş verən zəlzələnin nəticələrini aradan qaldırmaq, yaralarını sarımaq üçün dünyadan yardım istədi.

Türkiyənin imdadına yenə ilk olaraq Azərbaycan özünü çatdırdı.

Qardaş ölkənin daxili işlər naziri Süleyman Soylu hələ 4-cü dərəcəli həyəcan təbilinin elan edildiyini bəyan etməzdən əvvəl, dövlətimizin başçısı İlham Əliyev həmkarı Rəcəb Tayyib Ərdoğana öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa dilədi. Bunun ardınca Prezidentin göstərişi ilə 370 nəfərlik azərbaycanlı xilasedicinin yola düşdüyü xəbəri yayıldı, daha sonra ilkin yardım məqsədilə çadırlar, yataq dəstləri, tibbi ləvazimatlar və digər zəruri vasitələri hadisə yerinə çatdıracaq ikinci təyyarəmiz havalandı.

Azərbaycan Fövqəladə Hallar Nazirliyinin xilasetmə qüvvələri dağıntılar altında qalmış şəxslərin çıxarılması və nəticələrin aradan qaldırılması üçün bu gün də səylə çalışır.

Bir millətin iki dövləti arasında olan münasibətlər dəfələrlə dünyaya nümayiş etdirib ki, əsl dostluq, əsl qardaşlıq çağırılmadan köməyə getməkdir. Azərbaycan və Türkiyə bu mənada beynəlxalq diplomatiyaya çoxdan yeni məzmun gətirib, yeni çalar qatıb.

Türkiyənin həyəcan təbilinə bir çox ölkədən dəstəyin gəlməsi, xüsusən soyuq münasibətdə olduğu dövlətlərin belə çağırışa dərhal reaksiya verməsi isə, hər nə qədər kədərin insanlığı birləşdirməsi kimi görünsə də, türkün yanında olmaq baxımından siyasi mənası daha qabarıqdır.

# QİSASI QİYAMƏTƏ QOYMAYANLARI UNUTMURUQ



Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçumuz çavuş Xeyrullayev Cəlil Mürvət oğlu 1989-cu il mayın 16-da Quba rayonunun İkinci Nügədi kəndində doğulub.

Cəlil orta təhsilini 1996-2007-ci illərdə İkinci Nügədi kənd 3 saylı tam orta məktəbində alıb. Hələ yeniyetmə yaşlarından idmana, o cümlədən hərbçi peşəsinə böyük maraq göstərib, vətənpərvər ruhda böyüyüb.

Şəhidimiz müddətli həqiqi hərbi xidmətini 2007-ci ilin iyul ayından 2009-cu ilin yanvar ayınadək Müdafiə Nazirliyinin Gədəbəy rayonundakı “N” saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbçi peşəsinə olan böyük marağı səbəbindən hərbi xidmətə qayıtmağa qərar verib. Beləliklə, 2012-ci ilin aprel ayından Daxili Qoşunların 16073 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2012-ci ilin iyulundan hərbi hissənin “Bəbir” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən çavuş C.Xeyrullayev əvvəlcə atəş təminatı qrupunun heyət nəfəri, ikinci 60 mm-lik minaatan komandiri, 60 mm-lik minaatan yarımqrupunun minaatan komandiri, xüsusi həmlə qrupunun ikinci yarımqrupunun qumbaraatan köməkçisi vəzifələrində xidmət edib. 2018-ci ilin aprel ayından etibarən 17072 saylı hərbi hissədə xidmətini davam etdirən Cəlilin sonuncu vəzifəsi isə “Pələng” xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun snayper yarımqrupunun heyət nəfəri olub. Xidmət etdiyi dövrdə vəzifə borclarını layiqincə yerinə yetirdiyinə, şəxsi nümunə və yüksək hərbi intizam nümayiş etdirdiyinə görə hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri olmuş, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov (hazırda 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri) vaxtilə tabeliyində xidmət etmiş Cəlili belə xatırlayır: “Cəlil xidmət etdiyi dövrdə vəzifə borcuna məsuliyyətlə yanaşıb, verilən tapşırıqları layiqincə yerinə yetirib. Hərbi anda sadiq əsl vətənpərvər olduğunu isə Cəlil məhz döyüş meydanında düşməni məğlub etmək üçün son damla qanınadək vuruşmaqla göstərmiş oldu”.

Hərbi qulluqçumuz Murovdağ silsiləsinin, Xocavənd rayonunun Hadrut qəsəbəsinin, həmçinin Cəbrayıl və Füzuli rayonlarının bir sıra yaşayış məntəqələrinin, strateji əhəmiyyətli yüksəkliklərin azad olunmasında, eləcə də ermənilərin xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində böyük şücaət göstərib.

15 oktyabr 2020-ci il. Füzuli şəhəri istiqamətində gedən döyüş Cəlilin son döyüşü oldu. Döyüşün qızğın çağında düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində Cəlil sağ ayağından qəlpə yarası alıb. Yoldaşları tərəfindən ona ilk tibbi yardım göstərilib. Lakin döyüşün gedişində ağır məğlubiyyətə uğrayan düşmən uzaq məsafədən döyüşçülərimizin azad etdikləri mövqeləri yenidən şiddətli atəşə məruz qoyub. Bu zaman yaxınlığında tank mərmisinin partlaması nəticəsində ağır qəlpə yarası alan Cəlil əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlib.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 17 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 15-də Füzulidə hərbi əməliyyat nəticəsində odlu silah yarasından həlak olduğu yazılıb.

Çavuş C.Xeyrullayev 2020-ci il oktyabrın 16-da Quba rayonunun İkinci Nügədi kəndinin qəbiristanlığında dəfn olunub. Subay idi.



Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli, eləcə də 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Xeyrullayev Cəlil Mürvət oğlu ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhid hərbi qulluqçumuzun vaxtilə yaşadığı küçəyə adı verilib, ailəsinin təşəbbüsü əsasında üzərində şəhidin barelyefi quraşdırılmış xatirə kompleksi yaradılıb.

*mayor Anar Əhmədov*

# “Açıq qapı” tədbirləri davam edir








Bu günlərdə S.C.Pişəvari adına Respublika Humanitar Fənlər Gimnaziyasının, Nizami rayonu 238 saylı, Səbail rayonu 203 saylı, Qaradağ rayonu Qobustan qəsəbəsində yerləşən 321 saylı tam orta məktəblərin IX-XI sinif şagirdləri DİN-in Polis Akademiyasında olublar. Şagirdlərə təhsil ocağı haqqında ətraflı məlumat verilib, yaradılmasının 100 illiyinə həsr edilmiş sənədli film nümayiş olunub, burada təhsil almaq üçün qəbul qaydaları izah edilib.

Şagirdlərlə görüşən Polis Akademiyasının rəisinin birinci müavini, polis polkovniki Vüqar Mansurov bu qocaman təhsil ocağının ölkə və DİN rəhbərliyinin ali diqqət və qayğısı sayəsində böyük inkişaf yolu keçdiyini bildirib.

Qeyd olunub ki, burada daxili işlər orqanları üçün ali hüquq təhsilli kadrlar hazırlanır, maddi-texniki baza ən müasir tələblərə cavab verir, MDB və dünyanın bir çox ölkələrinin analoji təhsil müəssisələri ilə əlaqələr inkişaf etdirilir, təhsil, təcrübə mübadiləsinə ciddi diqqət yetirilir.

Sonra şagirdlər Akademiyada yaradılan şəraitlə tanış olublar.

Daha sonra Akademiya rəhbərliyi adından şagirdlərə hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

*“Polis”*

# Həmkarlarımız da yardıma qoşulub

***Türkiyədə baş verən zəlzələdə zərərçəkənlərə kömək məqsədilə Babək prospektinə, qardaş ölkə üçün yardımların toplandığı ünvana gedənləri qardaşlıq duyğusu birləşdirib.***



Bu həmrəyliyin gücünü sonuncu dəfə biz Vətən müharibəsində yumruq kimi birləşəndə görmüşdük, dünyaya da göstərmişdik. Bu günlərdə isə Türkiyədə dağıntılar altında qalan körpələrin, soyuq-şaxtalı qış günlərində isti ocaqlarından olan ailələrin köməyinə can atırıq hamılıqla.

Əsl Çanakkala ruhu var Bakıda.

Yardım kampaniyasına polis əməkdaşları da qoşulub. **Yardımların toplandığı ərazidə Bakı şəhər BPİ DYPİ-nin, Xətai RPİ-nin əməkdaşları** həm ictimai və yol hərəkəti təhlükəsizliyini qoruyub, həm də zəlzələdən zərərçəkənlərə ehtiyac duyulan zəruri əşyalar gətiriblər.



**Əlahiddə Çevik Polis Alayının 5-ci Patrul Bölüyünün əməkdaşları** da təbii fəlakətlə üzləşənlərə kömək məqsədilə keçirilən kampaniyaya könüllü qoşulublar. Həmkarlarımız qış paltarları, o cümlədən yataq, yorğan, döşək, təmizlik alətləri toplayaraq qablaşdırıb, yardımların toplandığı ünvana çatdırıblar.







# Dəymiş ziyan ödətdirilib

Paytaxt sakini Sevda Həşimovanın dələduzluğa məruz qalması ilə bağlı müraciətinə Nəsimi Rayon Polis İdarəsində baxılıb və keçirilən əməliyyat tədbirləri nəticəsində ona maddi ziyan vuran şəxs saxlanılıb.

S.Həşimova oğlunu işə düzəltmək adı ilə qaynı oğlu İ.Məmmədova 6 min manat verib. Sonradan həmin şəxs 1 min 800 manat qaytarsa da, 4 min 200 manatı qaytarmaqdan boyun qaçırıb.

Araşdırma zamanı məlum olub ki, İ.Məmmədov həmin pulu əmisi oğlunu işə düzəltmək üçün tanışı Mahir Əmirova verib. M.Əmirov isə verdiyi vədə əməl etməyib, müxtəlif bəhanələrlə pulu geri qaytarmaqdan yayınıb.

Dələduzluq əməli ilə bağlı “Polis”in suallarını cavablandıran Nəsimi RPİ-nin İstintaq Şöbəsinin müstəntiqi, polis baş leytenantı Xəyyam Bağırzadə bildirdi ki, vətəndaşın müraciəti əsasında məsələyə hüquqi qiymət verilib, zərərçəkmişə dəyən ziyan tam ödətdirilib.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Naxçıvanda veteranlar sabitliyə töhfə verir




Uzun illərdir blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası mübariz insanları, tarixi şəxsiyyətləri, təbii gözəllikləri ilə diqqət çəkdiyi kimi, sabitliyin etibarlı qorunub saxlanıldığı diyar olaraq da hər zaman adından söz etdirib. Bir çox çətinliklərə baxmayaraq, əmin-amanlıq adasına çevrilməyi bacarıb Naxçıvan.

Bunda hər bir güc strukturunun əməyi danılmazdır, ancaq ictimai təhlükəsizlik və asayiş məsələləri birbaşa olaraq polisin üzərinə düşdüyünə görə sabitliyin məhz onların ərsəyə gətirdiyini əminliklə söyləyə bilərik. Polis veteranlarının təcrübəsindən, bilik və bacarıqlarından səmərəli istifadə edilməsi bu mənada daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsinə xüsusi töhfə verir.

Muxtar respublika ərazisində yaşayan polis veteranlarının 80 faizə yaxınının vaxtı ilə xidmət keçdikləri polis orqanları ilə birgə fəaliyyətə qoşulması, cinayətkarlığa qarşı mübarizədə öz köməklərini əsirgəməmələri bizə imkan verir ki, onların hansı miqyasda asayişin qorunmasına dəstək verdiklərini təhlil edək.

Daha dəqiq və aydın təsəvvürü Naxçıvan MR DİN-in Veteranlar Şurasının ötən il ərzində görülən işlər haqqında hesabatı yaradır.

Ötən hesabat ilində veteranlar əsasən silah-sursat, axtarış, müxtəlif xarakterli inzibati xətalar, bağlı qalan cinayət işləri və əməliyyat marağı kəsb edən digər faktlarla bağlı polis orqanlarına yaxından köməklik göstəriblər. Belə ki, əhalidə qanunsuz saxlanılan silahların yığılması istiqamətində həyata keçirilən profilaktik tədbirlərdə aktiv iştirak etməklə 17 ədəd müxtəlif markalı yivli silah, 850 ədəd müxtəlif çaplı patron, 1 ədəd qumbara və zirehli gödəkcə könüllü olaraq polisə təhvil verilib. Sürücülük hüququ olmayan 18, sərxoş halda avtomobil idarə edən 12 sürücü aşkar edilib. İnzibati hüquq pozuntuları ilə bağlı veteranlar tərəfindən müxtəlif xarakterli 132 inzibati xəta faktı aşkar edilərək müvafiq tədbirlər görülüb. Təqsirləndirilən şəxs qismində 1, mülki hüquqi öhdəliklərdən yayınan 38 nəfərin yeri müəyyən edilib.

Burada da cinayətkarlığa qarşı mübarizənin bir "cəbhəsini" veteranların iştirakı ilə keçirilən geniş maarifləndirici tədbirlər təşkil edir. Təhsil müəssisələrində, müxtəlif mərasimlərdə, kütləvi tədbirlərdə ictimaiyyət nümayəndələri qarşısında çıxış edən keçmiş asayiş keşikçiləri sağlam cəmiyyət naminə mübarizələrini bu gün də davam etdirirlər. Eləcə də münaqişəli ailələr, münaqişəli qonşularla 120-dən, fərdi profilaktik işə cəlb edilən valideynlərlə və həbs yerindən qayıdan şəxslərlə 100-dən artıq görüşdə veteranlar iştirak ediblər. O cümlədən kadr potensialının formalaşdırılması, şəxsi heyət arasında mənəvi-psixoloji durumun möhkəmləndirilməsi məqsədilə veteranlarla gənc əməkdaşların 50-dən artıq görüşü təşkil edilib.

Naxçıvan MR DİN Veteranlar Şurasının cari il üçün də nəzərdə tutulan tədbirlər planında veteranların köməyindən səmərəli istifadə prioritet kimi müəyyən edilib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Xalqın tarixini bilməyən insan, Özünü tanımaz, sözünü bilməz...



İki aya yaxındır ki, qəzetimizdə "Mükafatlı sual" rubrikası ilə oxucularımızı, həmkarlarımızı sınağa çəkirik. Bu rubrika elə ilk gündən diqqət çəkib, marağa səbəb olub. Sualı ilk və düzgün cavablandırana hədiyyəmiz pul, zər-ziba deyil, kitabdır.

Ötən nömrəmizdəki sualın da artıq cavabı tapılıb. Binəqədi Rayon Polis İdarəsində əməliyyat müvəkkili, polis leytenantı Muxtar Həsənov hamını qabaqlayıb.

Ancaq etiraf etməliyik ki, sualı düzgün cavablandıran oxucularımız arasında Telman adlı həmkarımızın tarixi faktlara istinadı, eləcə də fikrini daha dolğun izah etməsi diqqətimizi çəkdi. Zəng vurduq, danışdıq, Türkiyənin Azərbaycandakı Səfirliyinin mühafizə postunda görüşdük. Tariximizlə qürur duyan, onu öyrənən və öyrədən əməkdaşlarla bir sırada addımlamağın sevincini yaşadıq o gün. Telmanla Cümhuriyyət tariximiz, hətta qədim Azərbaycan tarixinin müxtəlif dövrləri ilə bağlı fikir mübadiləsi apardıq. Doğrusu, arabir bir-birimizlə razılaşmadığımız məqamlar da oldu...

***Polis serjantı Telman Vəliyev Zəngəzurda-Qafanda doğulub. Baş İctimai Təhlükəsizlik İdarəsinə bilavasitə tabe olan Diplomatik nümayəndəliklərin mühafizəsi üzrə Əlahiddə Polis Taborunda polis nəfəri vəzifəsində 19-cu ildir ki, xidmət edir.***

Onun ali təhsili olmasa da dünya və Azərbaycan tarixinə aid bilgiləri kifayət qədər genişdir. Tarixə, mütaliəyə marağına gəlincə, atası Kalam kişinin tarix müəllimi olması təbii ki, Telmanın bu sahədəki biliyinin, dünyagörüşünün formalaşmasında mühüm rol oynayıb. Ömrünü Vətənə, dövlətə və dövlətçiliyə xidmətə həsr edən həmkarımız bu gün də davamlı olaraq asudə vaxtlarında mütaliə etdiyini bildirir. İş yoldaşlarına da boş vaxtlarında kitab oxumağı məsləhət görür. Deyir ki, mütaliə insanı zənginləşdirir, ruhunu sakitləşdirir, bir sözlə, kitab oxumaq insan üçün mənəvi qidadır.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Münhendən qələbə xəbəri gəldi

**Almaniyanın Münhen şəhərində 24 ölkə arasında atıcılıq üzrə H&N Kuboku turniri keçirilib.**




Yarışda atıcımız Xanna Əliyeva gənc qızlar arasında 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçma yarışında qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Bundan başqa, DİN Daxili Qoşunların kapitanı Ruslan Lunyov 10 metr məsafəyə pnevmatik tapança ilə hədəfə düz nişan alıb. O, 57 idmançı arasında aktivinə 579 və 588 bal yazdıraraq qızıl və gümüş medala sahib çıxıb.

Qeyd edək ki, çempionumuz R.Lunyovun baş məşqçisi, anası Olimpiya mükafatçısı İrada Aşumova, şəxsi məşqçisi isə atası Əməkdar məşqçi Vladimir Lunyovdur.

# Peşəkar kəmərin qalibi



**Bu günlərdə İstanbulda idmanın kikboksing K1 və muay tay növləri üzrə "King of king" dünya peşəkar kəmər yarışı keçirilib.**

Yarışda Xətai RPİ-nin 37-ci PB-nin YYÇ işləri üzrə inspektoru, polis kapitanı Abbas Tunc da gücünü sınayıb.

O, dünya kəmərinin sahibi olan rəqibi - Dylan Bronnunu məğlub edərək həmin titula sahib çıxıb.

Qeyd edək ki, həmkarımızı yarışa Əməkdar məşqçi Hikmət Hacıyev hazırlayıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*








# Sabahımızı düşünərək

Sabunçu rayonunda Rixard Zorge adına 90 nömrəli tam orta məktəbdə Sabunçu Rayon Polis İdarəsi və Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya yox deyirik!" mövzusunda maarifləndirici tədbir keçirilib.

Dövlət Himninin səslənməsi və Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə çıxış edən Rayon İcra Hakimiyyəti başçısının müavini Güloğlan Məmmədov ölkəmizdə narkomaniya ilə mübarizədən və maarifləndirici təbirlərin əhəmiyyətindən danışıb.

**Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Cavid Muradov** isə rayon ərazisində polisin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirdiyi əməliyyat-axtarış fəaliyyətinə diqqət çəkərək, sosial şəbəkə üzərindən narkotik vasitələrin təbliğ edilməsi cəhdlərinə toxunub. Məktəbliləri ayıq-sayığ olmağa çağıran idarə rəisi yuxarı sinif şagirdlərini Polis Akademiyasına qəbul olmaqla, polisin qətiyyətli mübarizəsinə qoşula və sağlam cəmiyyətin formalaşmasında yaxından iştirak edə biləcəklərini də vurğulayıb. Bildirilib ki, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi DİN rəhbərliyinin də diqqət mərkəzindədir.

**DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov** daxili işlər orqanlarının ictimaiyyət tərəfindən dəstəklənməsinin, xüsusən cəmiyyətin aparıcı qüvvəsi olan gənclərin maarifləndirici tədbirlərdə iştirak etməsinin vacib olduğunu, son dövrlər də bu dəstəyin nəzərəçarpacaq qədər artdığını qeyd edib. O, birgə səylərin səmərə verəcəyinə əminliyini ifadə edib.

Paytaxtda gəncləri narkomaniya və erkən nikahdan, digər zərərli vərdişlərdən çəkindirmək üçün keçirilən tədbirlər barədə çıxış edən **Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** da yalnız birgə fəaliyyət sayəsində qlobal probelmin həll edilə biləcəyini, aparılan mübarizənin daha səmərəli olacağını deyib.

**Mövzu ətrafında çıxış edən həkim-narkoloq Rövşən Kərimli və psixoloq Ofeliya Məmmədova** narkotik vasitələrin insan orqanizmində törətdiyi fəsadlar barədə ətraflı məlumat veriblər.

Daha sonra məktəblilər mövzuya aid səhnəcik nümayiş etdiriblər.

Sonda isə onları maraqlandıran suallar cavablandırılıb, fəallıq göstərən şagirdlərə Polis İdarəsinin rəisi tərəfindən diplomlar təqdim olunub.

# Regionlarda silsilə tədbirlər keçirilir

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq paytaxtda və bölgələrdə “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişafı Strategiyası”nın həyata keçirilməsi məqsədi ilə müxtəlif tədbirlər keçirilir. Belə tədbirlərdən biri də 8 fevral 2023-cü il tarixdə Daxili İşlər Nazirliyinin və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Masallı Rayon Gənclər Evində baş tutub. **Tədbirdə DİN ŞHİİ-nin əməkdaşları, polis polkovniki Laçın Paşayev, polis polkovnik-leytenantı Firdovsi Nəsirov, Masallı RPŞ-nin rəisinin ŞHİÜ köməkçisi, polis kapitanı İxtiyar Talıbov, Polis Akademiyasının gənc əməkdaşları və polis veteranları** IX-XI sinif şagirdlərinə, o cümlədən hərbi xidməti başa vurmuş gənclərə polisin tarixi, daxili işlər orqanlarında xidmətin şərəfi və məsuliyyəti barədə söhbət açıb, DİN sistemində təhsilə təşviq istiqamətində zəruri məlumatları çatdırıblar.






Natiqlər ali təhsil müəssisələrinə hazırlaşan, daxili işlər orqanlarında xidmət etmək həvəsində olan abituriyentlərə Polis Akademiyasına kursant qəbulu qaydaları ilə bağlı da ətraflı məlumat veriblər. Bu təhsil ocağında gənclərimizin hərtərəfli inkişafı üçün yaradılan müasir şəraitdən, zəngin kitabxana fondundan, xarici dil öyrənmək imkanından, laboratoriyalardan, yataqxana və asudə vaxtın səmərəli təşkilindən də bəhs edilib.

Sonra qocaman təhsil müəssisəsindəki tədris prosesinə, kursantların hazırlığına həsr edilmiş videoçarx nümayiş olunub, məktəblilərə bukletlər paylanılıb və onların sualları cavablandırılıb.

## BİZƏ YAZIRLAR...



**Bakı şəhər sakini Məmməd Dadaşov yazır:** “Mobil telefonumun dələduzluq yolu ilə ələ keçirilməsilə bağlı Yasamal RPİ-nun 29-cu Polis Bölməsinə müraciət etmişdim. Müraciətimə dərhal reaksiya verildi. Həmin şəxs qısa müddət ərzində tapıldı və mobil telefonum özümə qaytarıldı. Polis əməkdaşlarının operativ və obyektiv araşdırmasından qürur duydum. DİN rəhbərliyi başda olmaqla polis əməkdaşlarına minnətdarlıq bildirməyi özümə borc bilirəm”.

“Sosial şəbəkədə onlayn formada pul krediti ilə bağlı müraciət etdim. Aylıq ödənişi 75 manat olmaqla 2 min manat götürmək üçün ilkin olaraq 100 manat komissiya xərcini də ödədim. Bir neçə gündən sonra həmin şəxsə yazdım amma heç bir nəticəsi olmadı. Anladım ki, aldadılmışam. Üz tutdum Sabunçu RPİ-nin 13-cü Polis Bölməsinə. Orada məni qəbul edib dinlədilər, izahatımı aldılar. Qısa zaman kəsiyində dələduzluq edən şəxs aşkar olunaraq Bölməyə gətirildi və mənə dəymiş ziyan ödətdirildi”. Bu məktubu **Bakı şəhər sakini Vüqar Quliyev** ünvanlayıb.

Daha bir təşəkkür məktubunu **İlhamə Vəliyeva** yazıb: “Tanışım H.Sərdarov məni xəstəxanaların birində xadimə kimi işə düzəldəcəyinə söz verib, bunun müqabilində isə məndən 750 manat almışdı. Bir müddət keçdikdən sonra işin həlli barədə soruşduqda heç bir cavab vermədi və beləcə günlər bir-birini əvəz etdi. Aldadıldığımı başa düşdüm. Kömək üçün Sabunçu Rayon Polis İdarəsinə getdim. Orada məni dinləyib aidiyyəti üzrə 13-cü Polis Bölməsinə yönəltdilər. Təhqiqatçı, polis kapitanı Azər Əhmədov izahatımı aldı. Qısa müddət ərzində həmin şəxş bölməyə dəvət olundu və o, törətdiyi əməli etiraf etdi. Mənə dəymiş ziyan tam ödətdirildi. Müraciətimin tez bir zamanda həll olunacağına inanırdım. Azərbaycan Polisinə minnətdaram”.

“Pulqabımı itirmişdim. İçərisində şəxsiyyət vəsiqəm, tələbə biletim və bank kartı vardı. Çox həyəcanlıydım. Axtarsam da tapa bilmirdim. Böyük ümidlə Nərimanov RPİ-nin 16-cı Polis Bölməsinə getdim. Məni səmimi qəbul edib dinlədilər. Tez bir zamanda pulqabımın tapılması xəbərini verdilər. Mənə bu işdə köməklik edən polis əməkdaşlarına dərin minnətdarlığımı bildirirəm.” Bu məktubu isə **Azərbaycan Dövlət İqtisad Universitetinin 3-cü kurs tələbəsi Çimnaz Şaməmmədova** yazıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasında “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair

## ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə 300 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2023-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2023-cü ilin yanvar, aprel və iyul tarixlərində həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2023-cü il yanvar ayının 23-dən mart ayının 4-dək bazar günləri istisna olmaqla hər gün saat 1000-dan 1700-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);***

***– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);***

***– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***

***– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);***

***– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***

***– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

Seçmə komissiyasının vaxtı barədə əlavə məlumat veriləcəkdir. Polis Akademiyası haqqında ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 454-12-78,**
**(012) 590-98-16,**
**(012) 590-99-47.**

Döyüşlərdən apardığı qeydlərdə bu fikirlər yer alırdı: “Səngərlər arasındakı məsafə cəmi 8 metrdir, yəni ölüm labüddür. Birinci səngərdəkilərin hər biri xilas olmadan yerə sərilir. İkinci səngərdəkilər ildırım kimi onların yerinə keçirlər. Fəqət nə qədər bir tükürpədici soyuqqanlılıq və təfəkkürlə bomba, güllə yağışı altında ölənləri görür və 3 dəqiqədən sonra öləcəyini bilir və və cüzi belə çəkinmə göstərmir, sarsılma yoxdur. Bu dünyanın heç bir əsgərində olmayan ehtirama layiq bir nümunədir. Əmin olmalısınız ki, bizə qələbə qazandıran bu yüksək ruhdur"...




***Söhbət kimdən gedir?***

Vatsap:
+99455-875-16-39

## Rubrikamızın qalibi

Yazdığı kitaba görə Buxara əmiri tərəfindən mükafatlandırılıb. Türk, ərəb, fars dillərini mükəmməl bilib, ərəb qrammatikasını, islamşünaslığı, müsəlman paleqrafiyası və epiqrafiyası fənlərini tədris edib. Cümhuriyyətimizin polis orqanlarının təşəkkülündə və inkişaf etdirilməsində müstəsna xidmətləri olub. Söhbət kimdən gedir?

“Mükafatlı sual” rubrikamızda yer alan sualın cavabını **Binəqədi RPİ-nin əməliyyat müvəkkili, polis leytenantı Muxtar Həsənov** hamıdan tez tapıb. O, bu şəxsin Azərbaycan Xalq Cümhuriyyəti daxili işlər nazirinin müavini vəzifəsində çalışmış general-mayor M.S.Ağabəyzadənin olduğunu vatsap nömrəmizə ünvanlayaraq qalib olub.

Həmkarımızı təbrik edir, xidməti fəaliyyətində uğurlar arzulayırıq.

# Gümüş medal qazandı, hədəfi qızıldır



Ötən ay Macarıstanın Erd şəhərində sumo üzrə keçirilən "Erd Cup 2023" turnirində gümüş medal əldə edən DİN İdman Cəmiyyətinin yetirməsi – DİN-ə bilavasitə tabe olan İnzibati Həbs Olunanların Saxlanılma Mərkəzinin cinayət-axtarışı üzrə əməliyyat müvəkkili, polis kiçik leytenantı Sadiq Ağamalıyevin fevralın 4-də Estoniyanın Villi şəhərində Avropa kuboku uğrunda sumo güləşi üzrə keçirilən lisenziya xarakterli yarışdan xoş xəbərini aldıq.

O, 115 kiloqram çəkidə II yerə sahiblənərək Polşada keçiriləcək Avropa oyunlarına vəsiqə qazanıb.

Qeyd edək ki, 3-ü qızıl və 3-ü gümüş medal olmaqla ölkəmiz 9 ölkə arasında keçirilən bu yarışda komanda üzrə birincilik əldə edib.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

**Biləsuvar Rayon Polis Şöbəsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan şəhər sakini E.Həsənovdan nömrəsi silinmiş “P-63” markalı tapança, 6 ədəd patron və 1 ədəd patron darağı götürülüb. Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı isə oradan “Zenet” markalı gecəgörmə cihazı da aşkar olunaraq götürülüb.

◆◆◆

Sabunçu rayonunun Bakıxanov qəsəbəsində Bakı şəhər sakini N.Vəliyevin 200 ədəd lotereyasının soyğunçuluq yolu ilə talanması barədə polisə məlumat daxil olub.

**Sabunçu RPİ 13-cü Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində soyğunçuluq əməlində şübhəli bilinən paytaxt sakini V.Haqverdiyev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Xətai rayonu ərazisində yerləşən yarımstansiyaların birindən 73 min 800 manat dəyərində elektrik avadanlığının oğurlanması barədə polisə məlumat daxil olub.

**Xətai RPİ 35-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş D.Kərimli müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Mingəçevir Şəhər Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində şəhər ərazisindəki evlərin birindən 10 min manat, 3 min 100 ABŞ dolları və 5 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Mingəçevir sakini, əvvəllər məhkum olunmuş R.Əzizov müəyyən olunaraq saxlanılıb.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10000
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik